**M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası və**
**Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası arasında**

# ƏMƏKDAŞLIQ PROQRAMI

***2008 - 2010-cu illər üçün***

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası və Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası arasında Anlaşma Memorandumuna əsasən 2008 - 2010-cu illər üçün əməkdaşlıq proqramı üzrə aşağıdakıları həyata keçirəcəklər (konkret müddəalar qarşılıqlı razılıqla müəyyənləşdiriləcəkdir):

## 2008-ci ildə:

- Yeni nəşrlər barədə qarşılıqlı məlumatlandırma əsasında beynəlxalq kitab mübadiləsinin təşkili;
- Ölkə qanunvericiliyinə müvafiq olaraq hər iki kitabxananın məlumat-informasiya bazasından qarşılıqlı surətdə istifadəsinin təşkili;
- Azərbaycan Milli Kitabxanasının 85 illik yubileyi ilə əlaqədar keçiriləcək tədbirdə İskəndəriyyə Kitabxanasının nümayəndələrinin iştirakının təmin olunması.

## 2009-cu ildə

- M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında İskəndəriyyə Kitabxanasının fondlarından ədəbiyyat sərgisinin təşkili;
- Nadir nüsxələrin mühafizəsi və bərpası texnologiyasına, kitabxana-biblioqrafiya işinin avtomatlaşdırılmasına, kitabxana işinin digər sahələrinə dair Milli Kitabxananın əməkdaşlarının İskəndəriyyə kitabxanasında təcrübə mübadiləsinin təşkili;
- Nadir nüsxələrin, qiymətli nəşrlərin və əlyazmalarının surətlərinin, CD, DVD, mikrofilmlərin mübadiləsi.

## 2010-cu ildə

- İskəndəriyyə Kitabxanasında M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fondlarından ədəbiyyat sərgisinin təşkili;
- Hər iki Milli kitabxanada keçirilən kitabxana işinin müxtəlif sahələrinə dair beynəlxalq tədbirlərə qarşı tərəfin nümayəndələrinin dəvət olunması.

Bu Proqram Bakı şəhərində 25 dekabr 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətnə istinad ediləcəkdir.

| M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası | Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası |
| --- | --- |
| **Direktor** | **Direktor** |
| **Kərim Tahirov** | **İsmayıl Sirageldin** |
| K. Tahirov | |